**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

# QƏRAR

**№ 13/13**

**Bakı şəhəri** **30 aprel 2024-cü il**

## "Fərdi sahibkarların ticarət fəaliyyəti haqqında" 4-ticarət №-li rüblük rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstərişin təsdiq edilməsi və "Fiziki şəxslərin ticarət fəaliyyəti haqqında" 1-ticarət (fiziki şəxs) №-li rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstəriş haqqında" Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2012-ci il 19 iyul tarixli 59/13 nömrəli qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2021-ci il 27 avqust tarixli 17/13 nömrəli qərarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə"nin 9.6-cı və 14.4-cü bəndlərini rəhbər tutaraq Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**qərara alır:**

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2021-ci il 27 avqust tarixli 17/13 nömrəli qərarı ilə təsdiq edilmiş "Fərdi sahibkarların ticarət fəaliyyəti haqqında" 4-ticarət №-li rüblük rəsmi statistika hesabatı formasının təqdimetmə qaydalarını əks etdirən hissəsində "30" rəqəmləri "25" rəqəmləri ilə əvəz edilsin.

2. Qərar qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

3. Aparatın Ticarət statistikası şöbəsinə tapşırılsın ki, bu qərardan irəli gələn məsələləri həll etsin.

4. Qərarın icrasına nəzarət Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinə həvalə olunsun.

**Sədr** **Tahir Budaqov**